# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

AZ 1010, Bakı şəhəri, Üzeyir Hacıbəyov 62
Elektron poçtu: office@stm.az, Tel: (012) 510 70 78


№ 102 "18" May 2021-ci il

**Azərbaycan Universitetinin rektoru**
**Səadət xanım Əliyevaya**

**Hörmətli Səadət xanım,**

Azərbaycan müstəqilliyini əldə etməklə dünya ölkələri sırasında özünün şərəfli yerini tutmağa başladı.

Azərbaycanın siyasi tarixində Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlət həyatının bir çox sahələrində, o cümlədən təhsil sferasında yeni dövrün və yanaşmaların əsası qoyuldu.

Bu kontekstdə artıq 30 yaşını qeyd edən, ölkənin ilk özəl təhsil müəssisəsi kimi fəaliyyətə başlayan Azərbaycan Universitetinin xüsusi yeri var. Belə ki, dünya təcrübəsi göstərir, məhz bazar iqtisadiyyatı şəraitində azad rəqabətə imkan yaratmaqla, dövlət sektoru ilə yanaşı, özəl sektorun formalaşdırılması və onun imkanlarından istifadə etməklə iqtisadi inkişafa, ölkənin tərəqqisinə nail olmaq mümkündür. Elə buna görə də müstəqilliyin ilk illərindən ölkəmizdə digər sahələrlə yanaşı, təhsil sahəsində də özəl sektor yaranmağa başladı.

Ümummilli lider Heydər Əliyevin dövlət təhsil standartlarının və müvafiq əsasnamələrin hazırlanması istiqamətində atdığı addımlar çərçivəsində bir çox universitetlərin, o cümlədən Azərbaycan Universitetinin də tarixində xüsusi bir mərhələ başlamış oldu.

Universitet Boloniya Bəyannaməsinin tələbləri əsasında işini qurmaqla yanaşı, tədris siyasətini Avropa Kredit Transfer Sisteminin prinsipləri əsasında həyata keçirir, beynəlxalq keyfiyyət sertifikatlarına layiq görülür, beynəlxalq dil proqramlarını yüksək keyfiyyətlə təmsil edir. Ölkənin inkişafında, kadr bankının formalaşmasında mühüm rol oynayır.

**Hörmətli Səadət xanım,**

Azərbaycan Universitetinin yaradılmasının 30 illik yubileyi münasibətilə Sizi, Universitetin professor-müəllim heyətini, məzunlarınızı təbrik edir, uğurlar diləyirəm!

**Hörmətlə,**

**Sosial Tədqiqatlar Mərkəzi**
**İdarə Heyətinin sədri** **Zahid Oruc**